## «Ştrixli kodlaşdırma suallar və cavablarla» kitabı nəşrə hazırdır




2010-cu ilin II rübündə «Ştrixli kodlaşdırma suallar və cavablarla» adlı kitabın nəşri planlaşdırılıb. Kitabın müəllifi GS1 Azerbaijan cəmiyyətinin Baş direktoru V. L. Əliyev ştrixli kodlaşdırma texnologiyalarını istifadə edənlər üçün faydalı ola biləcək suallara praktiki cavablar verir. Kitab iqtisadiyyatın müxtəlif sahələrinin müəssisə rəhbərləri, mütəxəssisləri və sahibkarlar üçün nəzərdə tutulmuşdur. İqtisadi təhsil ocaqlarının tələbələri üçün tədris vəsaiti kimi də faydalı ola bilər.

Bu kitab istifadəçilərə ştrixli identifikasiya sistemlərinin istifadəçilərə xeyri,məhsul üçün ştrixkodun alınması, həmçinin məhsul üçün hansı kodun seçilməsi, ştrixkodun çap üsülları və bir çox digər sualları cavablandırır. Bundanəlavə avadanlıqları seçərkən yaranan səhvlər barəsində məlumat verir,



Kitabda ştrixli kodlaşdırma texnologiyalarına aid 200 suala cavablar izah olunur və faydalı məsləhətlər verilir.

Kitab 3 hissədən ibarətdir:

1. Ştrixli kodlaşdırma haqqında əsas məlumatlar.
2. Ştrixkod haqqında praktiki məlumat.
3. Ştixli kodlaşdırmanın texniki vasitələri:
   - ştrixkod skanerləri;
   - ştrixkod çap edən printerlər;
   - məlumat yığımı terminalları;
   - sərf olunan materiallar.








Kitab Azərbaycan və rus dillərində nəşr olunacaq. Bu günədək Azərbaycanda ştrixli kodlaşdırma sahəsində belə mövzuda və belə həcmdə kitab nəşr olunmayıb.

Əgər Siz bu kitabı əldə etmək istəyirsinizsə, o zaman bizə müraciət edə bilərsiniz.